

*Bu günlər Şuşa Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Zahid Abbasovun anadan olmasının 50 ili tamam olur.*

# Əsl yubiley Şuşada olacaq

***Yubiley münasibətilə jurnalımızın oxucuları və yaradıcı kollektivi adından onu ürəkdən təbrik edir, gərəkli işlərində uğurlar diləyirik.***

...Rayon və şəhər şöbə müdirləri içərisində bəlkə də hamıdan çox Zahid müəllimi tanıyırıq. Bu da təsadüfi deyil. Bir müddət xidməti otaqlarımız yanaşı olub. «Azkonsert»in binasında məskunlaşarkən onun bir rəhbər kimi yüksək təşkilatçılıq qabiliyyətinin, əməkdaşlarına qarşı mehriban davranış və qayğıkeşliyinin şahidi olmuşuq.

Bu gün Qarabağ problemi hamımızın ürəyində ağır dərd kimi qövr edir. Amma Z.Abbasovun bu sahədəki fəaliyyəti daha çox, daha rəngarəngdir. Hara gedib, harada məskunlaşıbsa orada səliqəsahman yaradıb, həmin yerə Şuşa ab-havası gətirib. işlədiyi otaq və dəhlizləri muzeyə çevirib...

Zahid Kamil oğlu Abbasov 1957-ci ildə Şuşada anadan olub. N.M.Şvernik adına Moskva Ali Həmkarlar və Bakı Ali Partiya məktəblərini bitirib. Müxtəlif məsul vəzifələrdə çalışıb. 1991-ci ildən mədəniyyət, 2006-cı ilin fevralından isə mədəniyyət və turizm şöbəsinə rəhbərlik edir.

***Növbəti sayımızda Şuşa Rayon Mədəniyyət və Turizm Şöbəsinin fəaliyyəti haqqında ətraflı söhbət açacağımızı nəzərə alaraq burada yazımıza nöqtə qoyur, bir daha yubilyarı səmimi qəlbdən təbrik edirik.***

S.ƏKBƏROVA